NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, № 1 (127)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 1 (127)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, № 1 (127)

**AİDƏ ABBASOVA**
*aida_abbasova_2015@mail.ru*
*Akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu*

**DOI: 10.30546/155244.2024.2.127.002**

# GƏNCƏ-DAŞKƏSƏN VƏ QAZAX-TOVUZ İQTİSADİ RAYONLARINDA AQRAR TƏSƏRRÜFATIN İNKİŞAFINDA DÖVLƏT PROQRAMLARININ ROLU

*Məqalədə Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarında Dövlət Proqramlarının, eləcə də kənd təsərrüfatının ayrı-ayrı sahələrini və istiqamətlərini dəstəkləyən proqramların həyata keçirilməsinin məhsul istehsalının artmasında rolu araşdırılmışdır. Məqsəd aqrar təsərrüfatın inkişafında bu proqramların əhəmiyyətini və dəyişikliklərin təhlilinə əsasən, regionun istehsal potensialını müəyyənləşdirmək olmuşdur.*

*Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonları respublikanın əsas kənd təsərrüfatı regionlarıdır. Bu rayonlarda kənd təsərrüfatının kifayət qədər inkişaf etmiş sahələri vardır. Belə ki, rayonlar bəzi kənd təsərrüfatı bitkilərinin: üzüm, kartof, şəkər çuğunduru, günəbaxan, tərəvəz və s. əkildiyi mərkəzlərdir. Ölkə üzrə günəbaxan istehsalının 46,7%-i Gəncə-Daşkəsən iqtisadi rayonunun, kartof istehsalının 50,9%-i, üzüm istehsalının 31,7%-i, tərəvəz istehsalının 20,6%-i, o cümlədən örtülü torpaqlarda tərəvəz istehsalının 36,4%-i, şəkər çuğunduru istehsalının 30,4%-i Qazax-Tovuz iqtisadi rayonunun payına düşür. Bu bitkilər əhalinin gündəlik ərzaq tələbatının ödənilməsində və yeyinti sənayesinin xammalla təminatında xüsusi əhəmiyyət kəsb etməklə, ərzaq təhlükəsizliyində mühüm rol oynayır. Burada kənd təsərrüfatı müəssisələrinin kifayət qədər olmaması bəzi məhsullardan tam yararlanmağa imkan vermir. Onların emalı müəssisələrinin ərazidə yerləşdirilməsi mühüm iqtisadi səmərə verə bilər.*

*Dövlət Proqramlarının icrası aqrar sahədə müsbət nəticələrin əldə olunmasına, məhsuldarlığın və istehsalın yüksəlməsinə şərait yaratmışdır. Regionlarda davamlı inkişafı təmin etmək üçün hazırkı Dövlət Proqramında da kənd təsərrüfatının inkişafı prioritet məsələlərdəndir.*

***Açar sözlər:*** *İqtisadi rayon, kənd təsərrüfatı, aqropark, Dövlət Proqramları, bitkiçilik, heyvandarlıq*

## Giriş

Dövlətin iqtisadiyyatında aqrar sahənin inkişafı əhəmiyyətli rol oynayır. Əhalinin ərzaq təminatı və ölkənin ərzaq təhlükəsizliyi, əsasən, aqrar sahənin inkişafı ilə bağlıdır. Bu sahə kənd təsərrüfatı ilə əlaqəli sənaye sahələrinin inkişafında, əhalinin ərzaqla davamlı təminatı və məşğulluğunda mühüm əhəmiyyətə malikdir. Hazırda kənd təsərrüfatının inkişafı və ixrac potensialının artırılması əsas məsələlərdən biridir. Bu baxımdan bitkiçilik sahələrinin səmərəli ərazi təşkili, onların bazar tələbatlarına cavab verə biləcək keyfiyyətdə olması, ixrac imkanları və bu sahədə olan problemlərin araşdırılması mühüm iqtisadi-coğrafi əhəmiyyət kəsb edir.

Son zamanlarda kənd təsərrüfatı sahəsində aparılan davamlı islahatlar, dövlət proqramlarının icrası regionlarda bitkiçilik sahələrinin inkişafına müsbət təsir göstərmiş, fermerlərin bu sahəyə marağını artırmışdır. Müxtəlif bitkiçilik sahələrinin stimullaşdırılması istiqamətində bir sıra işlər görülmüş, subsidiyalar verilmişdir.

Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonunun əlverişli təbii şəraiti, məhsuldar torpaq ehtiyatları və əhalinin kənd təsərrüfatı sahəsində ənənəvi əmək vərdişləri bitkiçiliyin ərazi təşkilinə və inkişaf etdirilməsinə geniş imkanlar yaratmışdır. Bu səbəbdən də bu iqtisadi rayonlar ölkənin əsas kənd təsərrüfatı regionlarından biridir. Potensial imkanların olduğunu nəzərə alsaq, kənd

təsərrüfatının bölgədə inkişafı gələcəkdə yerli tələbatın öz daxili imkanları hesabına ödəyəcəyini, rəqabətqabiliyyətli məhsul istehsalının artacağını söyləməyə imkan verir. Bu baxımdan tədqiqat işində Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarında regionların sosial-iqtisadi inkişafı məqsədi ilə həyata keçirilmiş Dövlət Proqramlarının, eyni zamanda aqrar sahənin inkişafı istiqamətində həyata keçirilmiş digər proqramların kənd təsərrüfatına inkişaf təsirini və son illərdəki vəziyyətini tədqiq etmişik.

**Tədqiqat regionu**

Tədqiq olunan Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonları 2021-ci ilə kimi birlikdə Gəncə-Qazax iqtisadi-coğrafi rayonu adlandırılmışdır. 2020-ci ildə Azərbaycan Respublikası Ermənistanın uzun müddət işğal altında saxladığı rayonları azad etdikdən sonra, həmin ərazilərin bərpası, gələcək inkişafını təmin etmək məqsədi ilə ölkə başçısı 07 iyul 2021-ci il "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərman imzaladı. Fərmana əsasən, Gəncə-Qazax iqtisadi-coğrafi rayonu iki ayrı iqtisadi rayona bölünmüşdür. İqtisadi rayonlar üzrə planlaşdırma işinin səmərəliliyinin və iqtisadi idarəetmənin çevikliyinin təmin edilməsi məqsədi ilə verilmiş fərmana əsasən, rayon: Gəncə-Daşkəsən iqtisadi rayonu (Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl, Samux rayonları) və Qazax-Tovuz iqtisadi rayonuna (Ağstafa, Gədəbəy, Qazax, Şəmkir, Tovuz rayonları) ayrılmışdır. 2021-ci ilin statistik məlumatlarına əsasən, ölkə əhalisinin 6,0%-i (612,1 min nəfər) Gəncə-Daşkəsən, 6,8%-i (690,6 min nəfər) isə Qazax-Tovuz iqtisadi rayonunda məskunlaşmışdır.

Gəncə-Daşkəsən iqtisadi rayonu ölkə ərazisinin 6,1%-ni (5,27 min $km^2$), Qazax-Tovuz iqtisadi rayonu isə 8,1%-i (7,03 $km^2$) əhatə etməklə respublikanın qərbində, Kiçik Qafqaz dağlarının şimal yamacında yerləşmişdir. Ərazilərinə Kür çökəkliyində yerləşən Gəncə-Qazax maili düzənliyi və Kür çayının sol hissəsində yerləşən Ceyrançöl düzü də daxildir. Əlverişli təbii şəraitə və ehtiyatlara, iqtisadi-coğrafi mövqeyə malik olan iqtisadi rayonlar ölkənin əsas nəqliyyat yollarının üzərində yerləşir. İqtisadi rayonların təbii və iqtisadi potensialından səmərəli istifadə etməklə regionun davamlı yüksək inkişafını təmin etmək olar.

2021-ci ildə ölkə iqtisadiyyatının əsas sahələri üzrə məhsul buraxılışının 3,1%-i Gəncə-Daşkəsən, 3,4%-i Qazax-Daşkəsən iqtisadi rayonunun payına düşmüşdür (13).

**Material və metod**

Regionla əlaqədar mənbələrdən, ərazidə aparılan sorğu materiallarından Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarının kənd təsərrüfatının müasir vəziyyəti, bu sahənin inkişafına təsir edən təbii-coğrafi və iqtisadi amillər öyrənilmişdir.

Məqalədə məlumat mənbəyi kimi ədəbiyyat materialları ilə yanaşı (kənd təsərrüfatına dair əsərlər), Azərbaycan Respublikası Prezidentinin regionların sosial-iqtisadi inkişafı və müxtəlif kənd təsərrüfatı sahələrinin inkişafına dair qəbul etdiyi fərmanlarından, ARDSK-nin məlumatları, tədqiqat regionunda apardığımız araşdırmalardan və internet resurslarından istifadə edilmişdir.

Tədqiqatın aparılmasında statistik, müqayisəli təhlil, sistem-struktur üsullarından istifadə edilmişdir.

**Təhlil və müzakirə**

Respublikanın hər yerində olduğu kimi 1990-2000-ci illərdə Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarında da aqrar sahədə çətinliklər, durğunluq yaranmış, əmək ehtiyatlarının çalışdığı iş yerlərinin əksəriyyəti fəaliyyətini dayandırmışdır. Kənd təsərrüfatı sahəsində məhsuldarlığın, istehsalın həcminin aşağı olması ciddi problemlər yaratmış, daxili bazarda tələbatı ödəmək üçün digər ölkələrdən alınan məhsullardan asılılıq yaranmışdır. Həmin dövrlərdə əkinçilikdə keyfiyyətli toxum növləri, su çatışmamazlığı, təsərrüfatdaxili suvarma sistemlərinin köhnəlmiş, yararsız halda olması, maddi-texniki bazanın zəif olması, xəstəliklərin artması, dərman çatışmamazlıqları, heyvandarlıqda ot ehtiyatlarının azalması, həmçinin otlaq sahələrinin eroziyası, baytarlıq xidmətlərinin aşağı olması kənd təsərrüfatına mənfi təsir göstərmişdir. Bu sahədə olan çətinliklərin aradan qaldırılması, inkişaf etdirilməsi məqsədi ilə 2000-ci illərdən başlayaraq ölkə miqyasında mühüm proqramlar həyata keçirilməyə başlanıldı. Ardıcıl həyata keçirilən proqramlar kənd təsərrüfatının inkişafına mühüm

təkan vermiş, regionların potensial imkanlarından istifadə etməklə, kənd təsərrüfatının hərtərəfli inkişaf etdirilməsinə zəmin yaranmışdır.

Kənd təsərrüfatı sahəsində olan problemlərin aradan qaldırılması və inkişafına dəstək məqsədilə 2002-ci ildə "Azərbaycan Respublikasında 2002-2006-cı illərdə aqrar bölmənin inkişafına dair proqram"ı təsdiq olunmuşdur. Proqramda əsas məsələlər kənd təsərrüfatında suvarma, meliorasiya təminatının bərpası, torpaq ehtiyatlarından səmərəli istifadənin təmin olunması, maddi-texniki bazanın möhkəmləndirilməsi, xammal istehsalı və emalı sahələrinin əlaqəli inkişafı, rəqabətqabiliyyətli məhsul istehsalının artırılmasının stimullaşdırılması, həmçinin aqrar bölmədə təşkilati strukturların yaradılması, hüquqi normativ bazanın təkmilləşdirilməsi, elmi-metodik təminatının, kadr hazırlığı sisteminin təkmilləşdirilməsi, maliyyə vəziyyətinin yaxşılaşdırılması kimi məsələlər öz əksini tapmışdır (1). Proqramın icrası dövründə, 2002-ci ildə Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarında kənd təsərrüfatı bitkilərinin əkin sahəsi müvafiq olaraq 48,5 və 103,7 min hektar olmuşdur. 4 il müddətində Gəncə-Daşkəsən iqtisadi rayonunda əkinlər 9,7%, Qazax-Tovuz iqtisadi rayonunda isə 3,4% genişləndirilmişdir. Bu da hər iki rayonda məhsul istehsalının artmasına şərait yaratmışdır (10).

2004-cü ildən etibarən regionlarda kənd təsərrüfatının inkişafı, ardıcıl olaraq qəbul edilmiş "Azərbaycan Respublikası regionlarının 2004-2008, 2009-2013, 2014-2018 və 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqram"larında da prioritet məsələlərdən olmuşdur. Proqramlarda bölgələrdə mövcud əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etməklə aqrar sektorda inkişafa nail olmaq, yoxsulluğun səviyyəsini azaltmaq, yerli əhalinin məşğulluğunu yüksəltmək və bununla bağlı olaraq ərazidə infrastrukturu yeniləmək, əlverişli investisiya şəraiti yaratmaq əsas istiqamətlərdən olmuşdur.

Dövlət Proqramlarının regionlarda həyata keçirilməsi aqrar sektorla yanaşı, iqtisadiyyatın digər sahələrinin inkişafına geniş vüsət vermiş, sahibkarlıq fəaliyyətinin genişlənməsinə, yeni müəssisələrin və yeni iş yerlərinin yaranmasına, infrastruktur və kommunal xidmətlərin səviyyəsinin daha da yüksəldilməsinə, əhalinin rifah halının yaxşılaşdırılmasına müsbət təsir göstərmişdir.

İcrası tamamlanmış üç ardıcıl proqram sayəsində hər iki iqtisadi rayonda birlikdə ümumi məhsul buraxılışı 2004-cü ildən 2008-ci ilə təxminən 2,7 dəfə artaraq 1604,7 mln, 2009-cu ildən 2013-cü ilə 1,8 dəfə artaraq 2734,4 mln manat, 2014-cü ildən 2018-ci ilə isə 1,4 dəfə artaraq 3724,2 mln manat təşkil etmişdir (Şəkil 1). Eyni zamanda kənd təsərrüfatı məhsulları istehsalının ümumi həcmi təxminən 3 dəfə artmışdır (2, 3, 4, 10).

2009-2013-cü illəri əhatə edən Dövlət Proqramının icrası dövründə iqtisadi rayonlarda kənd təsərrüfatı sahəsində aparılmış islahatlar bitkiçilik sahələrinin bəzilərində nəzərə çarpacaq inkişafa səbəb olmuşdur. Belə ki, Gəncə-Daşkəsən iqtisadi rayonunda tərəvəz istehsalında 8,3%, kartof istehsalında 13,9%, meyvə və giləmeyvəlilərin istehsalında 7,4%, pambıq istehsalında 21,0%, dən üçün günəbaxan istehsalında 95,5%, üzüm istehsalında 2,2 dəfə, Qazax-Tovuz iqtisadi rayonunda isə kartof istehsalında 3,1%, üzüm istehsalında 24,9%, dən üçün günəbaxan istehsalında 25,6% artım olmuşdur (10).

İqtisadi rayonda 2012-ci ildən etibarən davamlı olaraq Gəncə-Daşkəsən rayonunda şəkər çuğunduru əkilməyə başlanmışdır. Ötən bir il müddətində onun istehsalı 4 dəfədən çox artaraq 1,8 min tondan 7,8 min tona yüksəlmişdir. Qeyd edək ki, ilk dəfə 2006-cı ildə hər iki iqtisadi rayonda şəkər çuğunduru əkilmişdir. Gəncə-Daşkəsən iqtisadi rayonunda 47, Qazax-Tovuz iqtisadi rayonunda isə 110 hektar sahədə əkilmiş şəkər çuğundurundan müvafiq olaraq 1983 və 1963 ton məhsul əldə edilmişdir. Sonrakı illərdə Gəncə-Daşkəsən iqtisadi rayonunda əkinlər azaldılmış, Qazax-Tovuz iqtisadi rayonunda isə əkilməmişdir.

Göstərilən dövr müddətində hər iki iqtisadi rayonda dənli bitkilərin istehsalında geriləmə müşahidə olunmuşdur. Belə ki, 2009-cu ildən 2013-cü ilə Gəncə-Daşkəsən iqtisadi rayonunda istehsalda 12% (130,3 min ton), Qazax-Tovuz iqtisadi rayonunda isə 3,6% (191,9 min ton) azalma olmuşdur. Bunlardan əlavə olaraq Qazax-Tovuz iqtisadi rayonunda tərəvəz istehsalında 0,6%, meyvə və giləmeyvəlilərin istehsalında isə 0,3% azalma müşahidə edilmişdir (Cədvəl 1) (10, 12, 13).

*Cədvəl 1.*
*Dövlət Proqramlarının icrası dövründə əsas kənd təsərrüfatı bitkiləri istehsalının dinamikası*

| Əsas kənd təsərrüfatı bitkiləri istehsalı | I Dövlət Proqramı dövründə | | | II Dövlət Proqramı dövründə | | | III Dövlət Proqramı dövründə | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 2004 | 2008 | Fərq | 2009 | 2013 | Fərq | 2014 | 2018 | Fərq |
| | Min ton | Min ton | Dəfə | Min ton | Min ton | Dəfə | Min ton | Min ton | Dəfə |
| **Gəncə - Daşkəsən iqtisadi rayonu** | | | | | | | | | |
| Dənli bitkilər | 86,5 | 111,7 | 1,3 | 148,0 | 130,3 | 1,1* | 102,8 | 130,2 | 1,3 |
| Pambıq | 2,1 | 3,5 | 1.7 | 1,2 | 1,5 | 1,3 | 1,1 | 10,1 | 9 |
| Şəkər çuğunduru | - | 0,2 | | - | 7,8 | | 11,3 | 45,4 | 4 |
| Dən üçün günəbaxan | 0,5 | 2,9 | 6 | 4,3 | 8,4 | 2 | 8,6 | 11,2 | 1,3 |
| Kartof | 22,4 | 32,2 | 1,4 | 31,3 | 35,7 | 1,1 | 38,2 | 24,4 | 1,6* |
| Tərəvəz | 15,8 | 28,1 | 1,8 | 26,6 | 28,9 | 1,1 | 26,3 | 28,3 | 1,1 |
| Meyvə və giləmeyvəlilər | 8,9 | 37,3 | 4 | 38,2 | 41,0 | 1,1 | 34,7 | 40,5 | 1,2 |
| Üzüm | 0,7 | 5,9 | 8 | 6,2 | 14,0 | 2 | 13,8 | 20,0 | 1,4 |
| **Qazax - Tovuz iqtisadi rayonu** | | | | | | | | | |
| Dənli bitkilər | 183,5 | 164,1 | 10,6* | 199,0 | 191,9 | 3,6* | 161,8 | 231,9 | 43,3 |
| Şəkər çuğunduru | - | - | - | - | - | - | - | 49,4 | |
| Dən üçün günəbaxan | 1,4 | 1,6 | 14,3 | 1,1 | 1,4 | 27,3 | 2,1 | 3,3 | 57,1 |
| Kartof | 542,6 | 608,4 | 12,1 | 534,7 | 551,3 | 3,1* | 415,5 | 437,9 | 5,4 |
| Tərəvəz | 165,0 | 182,3 | 10,5 | 176,2 | 175,2 | 0,6* | 172,8 | 279,4 | 61,7 |
| Meyvə və giləmeyvəlilər | 22,2 | 97,1 | 4 dəfə | 90,6 | 100,0 | 10,4 | 99,4 | 131,8 | 32,6 |
| Üzüm | 22,0 | 29,6 | 34,5 | 31,8 | 39,7 | 24,8 | 41,9 | 44,6 | 6,4 |

**azalmanı göstərir***

Mənbə: Azərbaycanın kənd təsərrüfatı 2020. Bakı: DSK, 2021, 772 s.

Cədvəldən də göründüyü kimi həyata keçirilən Dövlət Proqramları iqtisadi rayonlarda kənd təsərrüfatı məhsullarının istehsalında dəyişikliklərə səbəb olmuşdur. İqtisadi rayonlarda əsas bitkiçilik sahələrinin bir çoxunda artım baş vermişdir. Bununla belə bəzi bitkiçilik sahələrində azalma müşahidə edilmişdi. Xüsusilə də ölkənin əsas kartofçuluq rayonu olan Qazax-Tovuz iqtisadi rayonunda kartof istehsalında azalma baş vermişdir. Buna iqtisadi rayonda əkinlərin getdikcə azaldılması, torpaqların düzgün istifadə edilməməsi, bəzi ərazilərdə müşahidə edilən təhlükəli təbiət hadisələri, suvarma suyunda olan çətinliklər, toxumçuluqda yaranmış problemlər və s. səbəb olmuşdur (10, 11).

Bu müddətdə heyvandarlıq məhsullarının istehsalında da artım müşahidə edilmiş, Gəncə-Daşkəsən iqtisadi rayonunda ət istehsalı 43,2%, süd istehsalı 28,2%, yun istehsalı isə 7,5%, Qazax-Tovuz iqtisadi rayonunda isə ət istehsalı 22,1%, süd istehsalı 38,8%, yun istehsalı 9,2%, yumurta istehsalında isə 84,2% yüksəlmişdir. Həmin dövrdə yalnız Gəncə-Daşkəsən iqtisadi rayonunda yumurta istehsalında azalma baş vermişdir (17,3%) (Cədvəl 2).

Dövlət Proqramlarının icrası dövründə iqtisadi rayonda müasir texnologiyalar quraşdırılmış müəssisələr yaradılmış, kənd təsərrüfatı sahəsində sahibkarlığı dəstəkləmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədi ilə yeni təsərrüfat sahələri, obyektlər yaradılmışdır. Bu müddət ərzində kənd təsərrüfatı sahəsində çalışan sahibkarlara və ilk sahibkarlıq fəaliyyətinə başlayanlara müxtəlif mövzularda treninqlər və s. tədbirlər keçirilmişdir.

İqtisadi rayonda kənd təsərrüfatı məhsullarının emalı, saxlanılması və aqrar sahənin inkişafına xidmət edən yeni infrastruktur obyektlərinin inşası həyata keçirilmişdir. Belə obyektlərdən: Samux rayonunda istixana, Tovuz rayonunda taxıl anbarı, Süd məhsulları emalı zavodu, Qazax rayonunda Konserv zavodu, Gədəbəy rayonunda soyuducu, bundan başqa gündəlik istehsal gücü 10 ton olan "Halal Qida" süd emalı zavodu, habelə onlarla digər istehsal və emal müəssisələrini misal göstərə bilərik.

2011-ci ildə Samux rayonunda ölkə bazarında aparıcı soyuducu-anbarlardan olan, fermerlərdən və ticarət şirkətlərindən 5 min tondan artıq məhsul qəbul edərək anbar xidmətləri göstərən, meyvə qurudulması və emalı üçün gücü 1,5 min ton olan "NAA Agrotara" müəssisəsi yaradılmışdır (3).

Digər bir müəssisə texniki təchizatın təkmilləşdirilməsi ilə əlaqədar olaraq 2012-ci ildə Ağstafa rayonunda istifadəyə verilmiş "Ağstafa Aqroservis" MMC olmuşdur. 14 min hektar sahəyə xidmət göstərə bilmək gücünə sahib olan müəssisəyə müasir standartlara uyğun texnika və avadanlıqlar quraşdırılmışdır.

Dövlət Proqramlarının icrası dövründə əsas məsələlərdən biri də regionlarda kənd təsərrüfatı su təchizatının yaxşılaşdırılması və yeni torpaqların əkin dövriyyəsinə cəlb edilməsi olmuşdur. Bu məqsədlə regionda su anbarları inşa edilmiş, bəziləri isə əsaslı təmir olunmuşdur. Həmçinin hidroqovşaqlar, kanallar, subartezian quyuları istifadəyə verilmişdir. Planlaşdırılmış bir sıra su obyektlərinin inşası daha sonra qəbul edilmiş 2014-2018-ci illəri əhatə edən Dövlət Proqramı müddətində yekunlaşdırılaraq fəaliyyətə başlamışdır (Şəmkirçay və Tovuzçay su anbarları). Su təchizatının yaxşılaşdırılması suvarma suyuna olan tələbatın ödənilməsi ilə yanaşı, yeni aqroparkların yaradılmasına da imkan yaratmışdır. Yaradılmış aqroparklar ölkənin ixrac potensialının artmasına, məhsuldarlığın yüksəldilməsinə geniş imkanlar açmışdır (3,4).

Regionda yaradılmış Şəmkir aqroparkı 543 hektar ərazini əhatə etməklə, müasir istixana kompleksləri, soyuducu anbar, satış mərkəzi, logistika və aqroservis mərkəzi, meyvə-tərəvəz emalı, tara istehsalı fabriki, araşdırma mərkəzi, otel və müxtəlif infrastruktur müəssisələrini özündə birləşdirmişdir. 2017-ci ildən Aqroparkın Logistika Mərkəzi fəaliyyətə başlamışdır. Burada kənd təsərrüfatı məhsullarını çeşidləmə, qablaşdırma, saxlama, etiketləmə, daşınma, satışı və s. həyata keçirilir. Mərkəzdə meyvə-tərəvəzlərin keyfiyyətini, bakterioloji və mikrobioloji göstəricilərini, toksikliyini analiz edəcək müasir avadanlıqlarla təchiz edilmiş laboratoriya fəaliyyət göstərir. Burada yaşıl marketlər, fermer satış mərkəzlərinin cəmləşməsi rəqabətqabiliyyətli kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalına şərait yaratmışdır.

Kənd təsərrüfatı məhsullarının istehsalının dəstəklənməsi istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində Ağstafa rayonunda taxıl və un məmulatları istehsalı kombinatının taxıl dəyirmanı inşa edilmiş və "Birinci Şıxlı Kəndli fermer təsərrüfatı" MMC fəaliyyətə başlamışdır. 151 hektar ərazini əhatə edən təsərrüfat sahəsinin 15 hektarında müasir suvarma, pivot sistem quraşdırılmışdır. Müəssisədə iqtisadi rayonun əsas kənd təsərrüfatı məhsullarından olan kartof və tərəvəzlərin təmizlənməsi, qurudulması, çeşidlənməsi və qablaşdırılması üçün müasir texnologiyalardan istifadə edilir. Burada həmçinin məhsulların saxlanılması üçün tutumu 2 min ton olan anbar və texnika üçün park inşa edilmişdir (2).

Qeyd edək ki, təzə kartof və tərəvəzin, o cümlədən istixana şəraitində faraş tərəvəz istehsalının dəstəklənməsi üçün geniş imkanların olduğu iqtisadi rayonlarda inkişaf planlarının hazırlanaraq həyata keçirilməsi "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə də nəzərə alınmışdır (8).

Həyata keçirilmiş uğurlu fəaliyyətlərin nəticəsi olaraq 2014-2018-ci illəri əhatə edən müddətdə Gəncə-Daşkəsən iqtisadi rayonunda əsas bitkiçilik sahələrinin: dənli bitkilərin istehsalı 26,7% artaraq 130,2 min ton, dən üçün günəbaxan 29,4% artaraq 11,1 min ton, tərəvəz 7,5% artaraq 28,3 min ton, meyvə və giləmeyvəlilər 16,7% artaraq 40,5 min ton, üzüm 45,5% artaraq 20,0 min ton, şəkər çuğunduru 4 dəfə artaraq 45,4 min ton, pambıq istehsalı isə 9,2 dəfə artaraq 10,1 min ton olmuşdur. Qazax-Tovuz iqtisadi rayonunda dənli bitkilərin istehsalı 43,3% artaraq 231,9 min ton, dən üçün günəbaxan 59,4% artaraq 3,3 min ton, tərəvəz 61,7% artaraq 279,4 min ton, meyvə və giləmeyvəlilər 32,5% artaraq 131,8 min ton, üzüm 6,6% artaraq 44,6 min ton, 2015-ci ildən əkilən şəkər çuğunduru istehsalı isə 33,6 dəfə artaraq 49,4 min ton olmuşdur.




***Şəkil 1.*** *Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarında Dövlət Proqramlarının icrası dövründə əsas kənd təsərrüfatı bitkiləri və heyvandarlıq məhsullarının istehsal dinamikasındakı dəyişikliklər (birlikdə cəmi %-lə)*

İqtisadi rayonlarda heyvandarlığın inkişafı üçün yüksək perspektiv mövcuddur. Belə ki, təbii şəraitin əlverişliliyi, yaylaq-qışlaq şəraiti ilə təmin olunma bu sahənin inkişafına geniş imkan yaradır. Südlük və ətlik istiqamətli iribuynuzlu heyvandarlıq təsərrüfatlarının yaradılmasına dəstək məqsədilə 2015-ci ildən "Aqrolizinq" ASC vasitəsilə iqtisadi rayonlara damazlıq heyvanlar gətirilmiş və kənd təsərrüfatı məhsulları istehsalçılarına güzəştlə lizinqə verilmişdir. Heyvandarlıq məhsullarının istehsalını artırmaq, mal-qaranın cins tərkibini yaxşılaşdırmaq, süni mayalandırma işlərini sürətləndirmək məqsədilə 2017-ci ildə Göygöl rayonunda süni mayalanma mərkəzi fəaliyyətə başlamışdır.

III Dövlət Proqramının icrası dövründə heyvandarlıq məhsullarının bəzilərinin istehsalında artım müşahidə edilmişdir. Gəncə-Daşkəsən iqtisadi rayonunda ət istehsalı 8,8%, süd istehsalı 18,2%, yumurta istehsalı 47,2%, Qazax-Tovuz iqtisadi rayonunda ət istehsalı 12,5%, süd istehsalı isə 12,1% yüksəlmişdir. Bunlarla yanaşı həmin dövrdə Gəncə-Daşkəsən iqtisadi rayonunda yun istehsalında (34,5%), Qazax-Tovuz iqtisadi rayonunda isə yun (2,0%) və yumurta istehsalında (48,8%) azalma baş vermişdir (Cədvəl 2). Bu məhsulların (yun, yumurta) istehsalının aşağı düşməsi heyvanların sayının azalması ilə bağlı olmuşdur. Belə ki, 2014-cü il ilə müqayisədə 2018-ci ildə hər iki iqtisadi rayonda qoyunların sayında 6,1%, eyni zamanda Qazax-Tovuz iqtisadi rayonunda quşların sayında 27,2% azalma olmuşdur.

*Cədvəl 2.*

*Dövlət Proqramlarının icrası dövründə heyvandarlıq məhsullarının istehsalında baş verən dəyişikliklər*

| Məhsul istehsalının adı | I Dövlət Proqramı | | | II Dövlət Proqramı | | | III Dövlət Proqramı | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 2004 | 2008 | Fərq | 2009 | 2013 | Fərq | 2014 | 2018 | Fərq |
| | Min ton | Min ton | %-lə | Min ton | Min ton | %-lə | Min ton | Min ton | %-lə |
| **Gəncə - Daşkəsən iqtisadi rayonu** | | | | | | | | | |
| Ət, ton | 5909 | 6023 | 1,9 | 6156 | 8815 | 43,2 | 9671 | 10521 | 8,8 |
| Süd, ton | 53761 | 70583 | 31,3 | 73901 | 94737 | 28,2 | 95803 | 113205 | 18,2 |
| Yun, fiziki çəkidə | 894 | 1470 | 64,4 | 1540 | 1655 | 7,5 | 1683 | 1103 | 34,5* |
| Yumurta, mln ədəd | 22048 | 24065 | 9,1 | 33140 | 27416 | 17,3* | 27560 | 40573 | 47,2 |
| **Qazax - Tovuz iqtisadi rayonu** | | | | | | | | | |
| Ət, ton | 13061 | 13865 | 6,2 | 14200 | 17339 | 22,1 | 17893 | 20130 | 12,5 |
| Süd, ton | 100753 | 115477 | 14,6 | 119082 | 165245 | 38,8 | 171059 | 191808 | 12,1 |
| Yun, fiziki çəkidə | 1511 | 1906 | 26,1 | 1954 | 2133 | 9,2 | 2158 | 2116 | 2* |
| Yumurta, mln ədəd | 54155 | 77548 | 43,2 | 80385 | 148054 | 84,2 | 183328 | 93820 | 48,8* |

****azalmanı göstərir***

Mənbə: Azərbaycanın kənd təsərrüfatı 2020. Bakı: DSK, 2021, 772 s.

2018-ci ildə Gəncə-Daşkəsən iqtisadi rayonunda aqrar sahənin inkişafinda mühüm rola malik ikinci aqropark fəaliyyətə başlamışdır. Yaradılan "Region Aqroparkı" Goranboy rayonu ərazisində istifadəsiz olan 3,5 min hektar torpaq sahəsini və Samux rayonu ərazisində Nazirlər Kabinetinin qərarı ilə təyinatı dəyişdirilərək əkin dövriyyəsinə cəlb edilmiş 1,2 min hektar qış otlaqları sahəsini əhatə edir. Bu aqroparkda istehsal olunan məhsulları uzun müddət saxlamaq üçün hər birinin tutumu 3 min ton olan 6 taxıl anbarı və saatda gücü 10 ton olan qurutma sistemi inşa edilmişdir. Qeyd edək ki, regionlarda yaradılan belə aqroparkların və müasir iri fermer təsərrüfatlarının aqrar sektorun inkişafında əhəmiyyəti olduqca böyükdür. Belə ki, iqtisadi rayonda tərəfimizdən aparılan sorğu zamanı məlum oldu ki, kiçik təsərrüfata malik olan fermerlər intensiv üsulun tətbiqinə nail ola bilmirlər. Kifayət qədər maddi-texniki bazaya imkanları olmadığından əkin sahəsinə vaxtında düzgün qulluq göstərə bilmirlər və bu da öz növbəsində təsərrüfat sahələrində məhsuldarlığın aşağı düşməsinə gətirib çıxarır.

Araşdırmalar göstərir ki, müasir dövrdə kənd təsərrüfatı istehsalının effektiv təşkili, torpaqdan səmərəli istifadəni və fermerlərin gəlirlərinin artırılmasını tələb edir. Buna görə də kənd təsərrüfatında kiçik əmtəə istehsalından rəqabətqabiliyyətli məhsul istehsalına keçmək, yeni texnika və texnologiyalar tətbiq etməklə məhsuldarlığı artırmaq və xarici bazarlara çıxışı təmin etmək lazımdır. Bunun üçün ən optimal yol birgə təsərrüfatçılıq forması hesab edilən kooperativlərin yaradılmasıdır. Hazırda birgə təsərrüfatların yaradılması, kənd təsərrüfatı kooperasiyasının inkişaf etdirilməsi aqrar siyasətin aktual məsələlərindən birinə çevrilmişdir. Bu məqsədlə 2017-ci ildə "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı" qəbul edilmişdir. Bu Proqramın icrasında əsas hədəf kənd təsərrüfatı məhsulları istehsalçılarını birgə təsərrüfatçılıq fəaliyyətinə təşviq etmək, könüllülük əsasında kənd təsərrüfatı kooperativlərinin təşkilinə əlverişli şərait yaratmaq və dayanıqlı fəaliyyətini təmin etmək, həmçinin aqrar sahədə kooperasiyanın formalaşmasına və inkişafına dəstək vermək olmuşdur (6).

Dövlət Proqramlarında əsas məsələlərdən biri olan sahibkarlığın inkişafı istiqamətində də iqtisadi rayonlarda bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, sahibkarlar investisiya təşviqi sənədinə əsasən, vergi və gömrük sahəsində güzəştlər əldə etmişdirlər. Kənd təsərrüfatı ilə məşğul olan sahibkarların fəaliyyətinin dəstəklənməsi məqsədilə məhsul istehsalçılarına əkinçiliyə görə yardım edilmiş, güzəştli şərtlərlə mineral gübrə və kreditlər verilmişdir.

2014-2018-ci illər ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən müxtəlif yönümlü layihələrin icrası üçün güzəştli kreditlər verilmişdir. Göstərilən dövr müddətində Fond vasitəsilə hər iki iqtisadi rayona birlikdə 3,3 min (20,4%) layihəyə 139,9 min (13,5%) manat dəyərində güzəştli kreditləri verilmişdir. Bu layihələrin də çox hissəsi məhz aqrar sektorun payına düşmüş və iqtisadi rayonlarda aqrar sahə ilə əlaqəli bir sıra müəssisələr istifadəyə verilmişdir. Şəmkirdə logistika mərkəzi, Ağstafada "Karvan-L EKO" sənaye parkı, "Moden" mebel fabriki, Gədəbəydə limonad zavodu, Şəmkirdə Çörək zavodu bu dövrdə fəaliyyətə başlamışdır (4).

Proqramların icrası dövründə məhz aqrar sektora xüsusi diqqətin ayrılması iqtisadiyyatda payının artması ilə yanaşı, onu əsas gəlir gətirən sahələrindən birinə çevirmişdir. Kənd təsərrüfatı ilə məşğul olan hüquqi və fiziki şəxslərin torpaq vergisi istisna olmaqla bütün növ vergilərdən azad edilməsi, kənd təsərrüfatı məhsullarının istehsalına görə hər hektara sərf olunan yanacaq və motor yağlarına görə vəsaitin bir qisminin dövlət tərəfindən ödənilməsi, mineral gübrələrin 70% güzəştlə satılması, texnikaların "Aqrolizinq" ASC vasitəsi ilə 40% güzəştli şərtlərlə lizinqə verilməsi, bu sahənin inkişafına mühüm təkan vermişdir. Bunlardan əlavə toxumçuluq və tinglik təsərrüfatlarında satılan birinci və ikinci reproduksiyalı toxumlara görə dövlət tərəfindən subsidiyaların, kənd təsərrüfatı əmlakının sığortalanmasına görə müqavilə üzrə hesablanmış sığorta haqqının 50%-nin dövlət büdcəsi hesabına ödənilməsi təmin olunmuş, torpaqların meliorativ cəhətdən yaxşılaşdırılması, eləcə də suvarma suyu və qış otlaq sahələrinə verilən suyun aşağı tariflərlə satışı həyata keçirilmişdir.

Bu dövrdə pambıq, tütün, şəkər çuğunduru və barama istehsalında son məhsula, həmçinin saxlanılan hər arı ailəsinə görə subsidiyaların verilməsi də bu sahələrin sürətli inkişafına səbəb olmuşdur.

Dövlət Proqramlarından əlavə olaraq keçən dövr ərzində aqrar sferanın inkişafına yönəldilmiş başqa tədbirlər də həyata keçirilmişdir. Fermerlər, sahibkarlar, alim və mütəxəssislərin maraqlarını təmin edən bir sıra fərman və sərəncamlar verilmiş, proqramlar hazırlanmış, təsdiq edilmişdir. Əhalinin ərzaq tələbatını yerli istehsal hesabına təmin etmək, kənd təsərrüfatı məhsulları istehsalının artırılması məqsədi ilə "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı", "Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında", "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı" və digər qəbul edilmiş hüquqi-normativ sənədlər aqrar sahənin inkişafına mühüm təkan vermişdir.

"2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda inkişaf etdirilməsi nəzərdə tutulmuş ənənəvi bitkiçilik sahələrindən taxılçılıq, üzümçülük, kartofçuluqla yanaşı regionda nisbətən az əkinləri olan günəbaxan və yeni əkilən şəkər çuğunduru sahələrinə də diqqət ayrılmışdır. İstixana şəraitində tərəvəz yetişdirilməsinə böyük maraq oyanmış, örtülü torpaqlarda tərəvəz əkinləri sürətlə inkişaf etdirilməyə başlanılmışdır (9). Keçən dövr ərzində 2008-ci ildən 2015-ci ilə Gəncə-Daşkəsən iqtisadi rayonunda dənli bitkilərin istehsalı 6,2% artaraq 118,7 min ton olmuş, bəzi bitkiçilik sahələrində isə istehsal dəfələrlə artırılmışdır. Belə ki, üzüm istehsalı 2,4 dəfə artaraq 14,1 min ton, günəbaxan istehsalı 2,5 dəfə artaraq 7,2 min ton, şəkər çuğunduru istehsalı 98,6 dəfə artaraq 15,8 min ton olmuşdur.

Qazax-Tovuz iqtisadi rayonunda üzüm istehsalı 45,4% artaraq 43,1 min ton, meyvə və giləmeyvəlilərin istehsalı 3,3% artaraq 100,3 min ton, günəbaxan istehsalı 61,5% artaraq 2,5 min ton olmuşdur. 2015-ci ildə əkilmiş şəkər çuğundurunun istehsalı isə 1,5 ton olmuşdur.

Bununla yanaşı həmin dövrdə bəzi bitkilərin istehsalında azalma müşahidə olunmuşdur. Gəncə-Daşkəsən iqtisadi rayonunda meyvə və giləmeyvəlilərin istehsalı 4,6% azalaraq 35,6 min ton olmuşdur. 2015-ci ildə isə iqtisadi rayonda pambıq istehsalının (8,5 dəfə azalma) isə ən aşağı həddi (0,4 min ton) müşahidə olunmuşdur. Qazax-Tovuz iqtisadi rayonunda dənli bitkilərin istehsalı 0,7% azalaraq 162,9 min ton olmuşdur. Bu proqramın əhatə etdiyi dövrdə tərəvəz və kartof istehsalı isə hər iki iqtisadi rayonda azalmışdır. Belə ki, tərəvəz istehsalı Gəncə-Daşkəsən iqtisadi rayonunda 14,9% (23,9 min tona), Qazax-Tovuz iqtisadi rayonunda isə 1,7% (179,2 min tona), kartof istehsalı isə müvafiq olaraq 5,4% (30,4 min tona) və 34,9% (396,1 min tona) azalmışdır.

Bitkiçilik sahələrindən fərqli olaraq heyvandarlıq məhsullarının istehsalında artım olmuşdur. 2008-ci illə müqayisədə 2015-ci ildə Gəncə-Daşkəsən iqtisadi rayonunda ət istehsalı 61,5%, süd istehsalı 41,7%, yun istehsalı 15,2%, yumurta istehsalı 28,7%, Qazax-Tovuz iqtisadi rayonunda isə ət istehsalı 33,8%, süd istehsalı 53,1%, yun istehsalı 15,3%, yumurta istehsalı 57,2% yüksəlmişdir (10).

Yuxarıda qeyd etdiyimiz kimi hər iki iqtisadi rayonda üzüm istehsalında kifayət qədər yüksək artım müşahidə olunmuşdur. Buna həmin dövrləri əhatə edən proqramla yanaşı "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nın icrası da təkan vermişdir. Beynəlxalq standartlara cavab verən üzümçülük və şərabçılığın inkişafına nail olmaq məqsədilə bir sıra tədbirlər həyata keçirilmiş, üzümçülüyün inkişaf etdirilməsini dəstəkləmək məqsədi ilə fiziki şəxslərə güzəştli kreditlər verilmişdir. Eyni zamanda iqtisadi rayonlarda üzüm istehsalı və emalı sahəsində yüksək nəticə əldə etmək üçün xırda ailə və fermer təsərrüfatlarının könüllülük əsasında kooperativlərdə birləşməsi təbliğ edilmişdir (7).

Şəmkir rayonunda fəaliyyət göstərən "Şərq ulduzu" ASC-də yeni konyak spirti istehsal edən müasir avadanlıqlar quraşdırılmışdır. Həyata keçirilən tədbirlərin nəticəsi olaraq iqtisadi rayonlardan "Gəncə Şərab-2" ASC, "Şərq Ulduzu", "Tovuz-Baltiya" Co MMC və bir sıra digər şirkətlərin şərab məhsulları müxtəlif ölkələrə uğurla ixrac edilmişdir.

Proqramın icrası dövründə Gəncə-Daşkəsən iqtisadi rayonunda üzüm əkinlərində azalma müşahidə olunsa da, intensiv üsulun tətbiqi ilə əlaqədar olaraq məhsuldarlıq yüksəlmiş və bunun

nəticəsi olaraq istehsal 52,5% artmışdır. Qazax-Tovuz iqtisadi rayonunda isə əkinlərin genişləndirilməsi və məhsuldarlığın artması istehsalın 50%-dən çox yüksəlməsinə şərait yaratmışdır.

*Cədvəl 3.*

*2012-2020-ci illərdə Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarında üzümçülükdə olan dəyişikliklər*

| İllər / Rayonlar | Əkin sahəsi, min ha | | Fərq (%-lə) | İstehsal, min ton | | Fərq (%-lə) | Məhsuldarlıq, sent/ha | | Fərq (%-lə) |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 2012 | 2020 | | 2012 | 2020 | | 2012 | 2020 | |
| **Gəncə - Daşkəsən** | **2,6** | **2.0** | **23,1*** | **13,5** | **20,5** | **51,8** | **102,9** | **103,8** | **0,9** |
| Gəncə şəhəri | 0.3 | 0,1 | 66,7* | 2,2 | 0,5 | 77,3* | 79,5 | 58,8 | 26* |
| Naftalan şəhəri | 0,003 | 0,002 | 33,3* | 0,004 | 0,015 | 375 | 45,0 | 38,2 | 15,1 |
| Goranboy rayonu | 0,08 | 0,08 | - | 1,7 | 1,3 | 23,5* | 269,4 | 160,0 | 40,6* |
| Göygöl rayonu | 1.1 | 0,7 | 36,4* | 3,7 | 7,1 | 91,9 | 46,3 | 90,8 | 96,1 |
| Samux rayonu | 1,1 | 1, 0 | 9,1* | 5,8 | 1,2 | 79,3* | 74,4 | 112,4 | 51,1 |
| **Qazax - Tovuz** | **1,9** | **2,1** | **10,5** | **39,0** | **59,2** | **51,8** | **169,4** | **190,8** | **12,6** |
| Qazax rayonu | 0,4 | 0,3 | 25* | 3,5 | 4,1 | 17,1 | 96,4 | 130,0 | 34,8 |
| Ağstafa rayonu | 0,4 | 0,5 | 25 | 5,6 | 7,6 | 35,7 | 151,6 | 160,7 | 6,0 |
| Tovuz rayonu | 0,6 | 0,8 | 33,3 | 7,9 | 17,8 | 125 | 174,4 | 246,0 | 41,0 |
| Şəmkir rayonu | 0.5 | 0,6 | 20 | 21,9 | 29,6 | 35,2 | 255,2 | 175,8 | 31,1* |
| Gədəbəy rayonu | | 8,5 | | | 131,9 | | | 155,1 | |

******azalmanı göstərir***

Mənbə: Azərbaycanın kənd təsərrüfatı 2020. Bakı: DSK, 2021, 772 s.

İqtisadi rayonlarda proqramın icrası dövründə üzüm əkinləri Şəmkir (5,7%), Ağstafa (11,2%) və Tovuz (39,1%) rayonları ərazisində genişləndirilmiş, digər rayonlarda isə azaldılmışdır. Uğurlu islahatlar nəticəsində üzüm istehsalı Göygöl rayonunda 1,9 dəfə, Samux rayonunda 2 dəfə, Tovuz rayonunda 2,2 dəfə, Naftalan şəhəri ərazisində 3,4 dəfə artmışdır.

2020-ci ildə Gədəbəy rayonunda 8,5 hektar sahədə üzümlük salınmışdır. Məhsuldarlığı 155,1 sentner təşkil etmiş, bağlardan 131,9 ton məhsul toplanmışdır.

Hər iki iqtisadi rayonda üzümün məhsuldarlığı uzun illər respublika üzrə göstəricidən yüksək olmuşdur. 2020-ci ildə respublika üzrə məhsuldarlıq 99,4, Gəncə-Daşkəsən iqtisadi rayonunda 103,8, Qazax-Tovuz iqtisadi rayonunda isə 190,8 sentner olmuşdur. Məhsuldarlıq inzibati rayonlar içərisində ən çox 246,0 sentner olmaqla Tovuz rayonunda müşahidə olunmuşdur (10, 12, 13).

Böyük potensiala malik aqrar sektorun inkişafının dəstəklənməsi siyasəti, o cümlədən bu sahənin vergilərdən azad olunması, fermerlərə subsidiyaların verilməsi kənd təsərrüfatı istehsalçılarına geniş şərait yaratmışdır. "Aqrolizinq" xətti ilə güzəştli kənd təsərrüfatı texnikası, avadanlıqlar, toxum, gübrə və cins mal-qara əldə edilməsi, dövlətin dəstəyi ilə regionda aqroservislər yaradılması bölgədə kənd təsərrüfatının inkişafına təkan vermişdir.

Hazırda "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində iqtisadi rayonlarda əvvəlki proqramlarda olduğu kimi taxılçılıq, kartofçuluq, üzümçülüyün, tərəvəzçiliyin, meyvəçiliyin, arıçılığın inkişafı, kiçik istixana və cins heyvandarlıq təsərrüfatlarının yaradılması işləri, kənd təsərrüfatı məhsulları istehsalı və emalı sahəsinin inkişafı, bu sahəyə xidmət edən infrastrukturun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində işlər davam etdirilir (5).

2019-2023-cü illəri əhatə edən dövrlərdə iqtisadi rayonların kənd təsərrüfatı məhsulları istehsalında dəyişikliklər baş vermiş, bəzi sahələrdə artım, bəzilərində isə ciddi azalmalar müşahidə edilmişdir. Belə ki, Gəncə-Daşkəsən iqtisadi rayonunda dənli bitkilərin istehsalı 7,4% artaraq 151,9 min ton, pambıq istehsalı 1,2% artaraq 7,4 min ton, meyvə və giləmeyvəlilər 4,4% artaraq 46,1 min ton, tərəvəz 15,8% artaraq 35,6 min ton, Qazax-Tovuz iqtisadi rayonunda üzüm istehsalı 22,3% artaraq 66,4 min ton, meyvə və giləmeyvəlilər 6,9% artaraq 164,6 min ton, tərəvəz 18,5% artaraq 373,4 min ton, kartof 12,6% artaraq 540,4 min ton olmuşdur. Digər bitkiçilik sahələrində isə geriləmələr olmuş, Gəncə-Daşkəsən iqtisadi rayonunda şəkər çuğunduru istehsalı kəskin azalaraq (9,3 dəfə) 2,0 min ton, günəbaxan istehsalında 25,4% azalaraq 11,8 min ton, kartof 22,4% azalaraq 21,5 min ton, üzüm 15,4% azalaraq 17,5 min ton, Qazax-Tovuz iqtisadi rayonunda dənli bitkilərin istehsalı 9,9% azalaraq 212,8 min ton olmuş, şəkər çuğunduru 16,6% azalaraq 53,8 min ton, günəbaxan 18,8% azalaraq 3,5 min ton olmuşdur.

Bitkiçilikdən fərqli olaraq heyvandarlıq məhsullarının istehsalında qismən dəyişikliklər müşahidə olunmuşdur. Belə ki, Gəncə-Daşkəsən iqtisadi rayonunda ət istehsalı 11,3% azalaraq 9,1 min ton, süd istehsalı 4,5% artaraq 125,8 min ton, yumurta 2,3% artaraq 46,2 min ədəd, yun istehsalı 1,3% azalaraq 1,0 min ton, Qazax-Tovuz iqtisadi rayonunda ət istehsalı 7,3% artaraq 21,7 min ton, süd 2,1% artaraq 188,9 min ton, yumurta 6,3% artaraq 88,7 min ədəd, yun 0,8% artaraq 2,2 min ton olmuşdur (10, 11, 12).

Hazırkı Dövlət Proqramının (2019-2023) əhatə etdiyi dövrdə Gəncə-Daşkəsən iqtisadi rayonu ərazisində Goranboyda 1,6 min hektar, Samuxda 4,9 min hektar, Qazax-Tovuz iqtisadi rayonunda isə Şəmkirdə 8,0 min hektar, Ağstafada 8,4 min hektar, Tovuzda 3,0 min hektar ərazidə şəkər çuğunduru, qarğıdalı, soya, arpa əkilməsi və müvafiq infrastrukturun qurulması nəzərdə tutulmuşdur. Həmçinin maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində:

1. Goranboy rayonunda İstixana kompleksinin yaradılması, 2,5 min hektar ərazidə yaradılmış taxılçılıq və pambıqçılıq üzrə mövcud aqroparkın genişləndirilməsi, mahlıc və çiyid istehsalı müəssisəsinin yaradılması;

2. Göygöl rayonunda Azərbaycan Bioloji Kombinatının yenidənqurulması, iri və xırdabuynuzlu heyvanların seleksiya damazlıq işlərinin aparılması üçün heyvandarlıq kompleksinin tikintisi;

3. Samux rayonunda 5,0 min ha və 2,2 min hektar ərazilərdə yaradılmış taxılçılıq üzrə mövcud aqroparkların genişləndirilməsi, 100 hektar kartofçuluq təsərrüfatının yaradılması, pambığın yerli torpaq iqlim şəraitinə uyğunlaşdırılmış məhsuldar, xəstəlik və zərərvericilərə davamlı tezyetişən sortlarının yaradılması və toxumçuluğunun təşkili ilə bağlı tədbirlərin görülməsi;

4. Ağstafa rayonunda Dilbaz Atçılıq təsərrüfatı üçün yeni kompleksın tikilməsi;

5. Qazax rayonunda 0,8 min ha ərazidə yaradılmış taxılçılıq və kartofçuluq üzrə mövcud aqroparkın genişləndirilməsi;

6. Şəmkir rayonunda 5,0 min hektar ərazidə bitkiçilik üzrə aqroparkın yaradılması, 8,6 min hektar ərazidə mövcud aqroparkın heyvandarlıq kompleksi yaratmaqla genişləndirilməsi, Könüllü və Abbaslı kəndlərinin ərazisində intensiv bağçılıq təsərrüfatının yaradılması, Mahmudlu kəndi ərazisində soyuducu anbar kompleksinin yaradılması, Könüllü bələdiyyəsi ərazisində istixana kompleksinin yaradılması, meyvə çeşidləmə və soyuducu anbar kompleksinin tikintisi;

7. Tovuz rayonunda dənli bitki toxumlarının emalı zavodunun tikintisi, 12,0 min hektar ərazidə yaradılmış bitkiçilik üzrə və Ceyrançöl ərazisində 1,2 min başlıq heyvandarlıq üzrə mövcud aqroparkların genişləndirilməsi, əmtəəlik kartof əkini sahəsinin yaradılması, Düz Cırdaxan kəndi

ərazisində soyuducu anbar kompleksinin genişləndirilməsi, yeni regional kartof anbarının tikintisi nəzərdə tutulmuşdur (5).

Bu Proqramda aqrar sektorun inkişaf etdirilməsi, əsas istehsal vasitəsi olan torpaqların münbitliyinin artırılması, rəqabətqabiliyyətli məhsul istehsalının təmin edilməsi və istehsalçıların ixrac fəaliyyətinin stimullaşdırılması, emal və yeyinti sənayesinin xammala və əhalinin ərzaq məhsullarına olan tələbatının yerli mənbələr hesabına ödənilməsini təmin etmək məqsədi daşıyır.

Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarında proqramların icrası müddətində aparılmış təhlildən aşağıdakı nəticələr əldə olunmuşdur.

Ardıcıl olaraq həyata keçirilmiş islahatlar Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarının iqtisadiyyatına müsbət təsir göstərmiş, Dövlət Proqramlarının icrası dövrlərini müqayisə etdikdə, 2014-2018-ci illər daha məhsuldar olmuşdur. Qeyd edək ki, kənd təsərrüfatı məhsulları istehsalı və yeni yaradılan müəssisələrin sayı xeyli artmış, hər iki iqtisadi rayonun birlikdə kənd təsərrüfatı məhsulu buraxılışı 2,5 dəfə yüksəlmişdir. Həmin müddətdə dənli bitkilər, pambıq (Qazax-Tovuz iqtisadi rayonunda əkilmir), dən üçün günəbaxan, tərəvəz, meyvə və giləmeyvəlilər, üzüm, ət, süd, yumurta (Qazax-Tovuz iqtisadi rayonu istisna) istehsalı artmışdır.

2012-ci ildən etibarən Gəncə-Daşkəsən iqtisadi rayonunda, 2015-ci ildən isə Qazax-Tovuz iqtisadi rayonunda davamlı əkilən şəkər çuğunduru istehsalı ilbəil yüksəlmiş, III Dövlət Proqramının yekununda ölkə üzrə cəmi istehsalın 1/3 hissəsi bu rayonların payına düşmüşdür. Bu da onu deməyə imkan verir ki, bu iqtisadi rayonlarda şəkər çuğunduru istehsalının artırılması üçün kifayət qədər potensial imkan mövcuddur.

Yun istehsalının hər iki iqtisadi rayonda aşağı düşməsi xırdabuynuzlu heyvanların sayının getdikcə azalması və əlçatan yun qəbulu məntəqələrinin olmaması ilə əlaqədar olmuşdur.

Qazax-Tovuz iqtisadi rayonunda digər kənd təsərrüfatı məhsullarından fərqli olaraq, kartof və yumurta istehsalında kəskin azalma müşahidə olunmuşdur. Belə ki, kartof istehsalı təqribən 20,0%, yumurta istehsalı isə 48,8% aşağı düşmüşdür. Kartof istehsalının aşağı düşməsi iqtisadi rayonda əkinlərinin azaldılması (17,6%), uzun illərdir eyni sahələrdə becərildiyindən torpağın məhsuldarlığının aşağı düşməsi, suvarma suyunda və toxumçuluqda olan çətinliklər, yumurta istehsalındakı problem isə quşların sayının azalması, son illərdə onların yetişdirilməsindəki çətinliklər, xəstəliklərin çoxalması və s. ilə bağlı olmuşdur.

Üzümçülüyün inkişafına dair Dövlət Proqramının icrası dövründə iqtisadi rayonlarda üzüm əkinlərinin sahəsi azalsa da, məhsuldarlıq və istehsal yüksəlmişdir. Hər iki iqtisadi rayonda üzüm istehsalında artım 50,0%-dən yüksək olmuşdur. Bu regionlarda üzümçülüyün inkişaf etdirilməsi, şərab istehsalının yüksəldilməsi, ixrac qabiliyyətinin artırılması üçün həyata keçirilən uğurlu islahatların nəticəsində baş vermişdir.

Dövlət Proqramlarının icrası dövründə kənd təsərrüfatı sahələrinin inkişafına göstərilən genişmiqyaslı dövlət dəstəyi, subsidiyaların verilməsi, lizinqin tətbiq olunması, yeni infrastruktur sahələrinin, istehsal müəssisələrinin regionda yaradılması, kənd təsərrüfatına və məşğulluğa olduqca müsbət təsir göstərmişdir. Qeyd edək ki, bu tədbirlərin davam etdirilməsi gələcəkdə regionların potensial imkanlarından daha da çox yararlanmağa imkan yaradacaqdır.

## ƏDƏBİYYAT


1. "Azərbaycan Respublikasında aqrar bölmənin inkişafına dair Proqram" (2002-2006): // 2002-ci ildə qəbul edilmişdir. Bakı: 2002, 10 s.
2. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2004-2008-ci illər): // Bakı: 2009, 204 s.
3. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın (2009-2013-cü illər) icrasının yekunları. Bakı: 2014, 233 s.
4. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın (2014-2018-ci illər) icrasının yekunları. Bakı: 2019, 324 s.
5. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2019-2023). Bakı: 2019, 352 s.
6. "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair Dövlət Proqramı" (2017-2022): // 14 iyul 2017-ci ildə qəbul edilmişdir.
7. "Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı" (2012-2020): // Bakı: 2011, 7 s.
8. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. Bakı: 2016, 177 s.
9. "Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" (2008-2015):// 25 avqust 2008-ci ildə qəbul edilmişdir. Bakı: 2009, 61 s.
10. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi səhifəsi. Mənbə: https://www.stat.gov.az/source/system_nat_accounts
11. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin rəsmi səhifəsi. Mənbə: https://www.agro.gov.az/az/bitkicilik/terevezcilik/kartof
12. Azərbaycanın kənd təsərrüfatı. Bakı: DSK, 2022, 774 s.
13. Azərbaycanın regionları. Bakı: DSK, 2022, 775 s.


## SUMMARY

**Aida Abbasova**

### THE ROLE OF STATE PROGRAMMES IN THE DEVELOPMENT OF AGRICULTURE IN GANJA- DASHKASAN AND GAZAKH-TOVUZ ECONOMIC REGIONS


The role of implementation of state programmes,as well as the programmes supporting separate branches and directions of agriculture in the increase of production in Ganja-Dashkasan and Tovuz-Kazakh regions has been investigated in the article.

The aim is to determine the importance of these programmes in the development of agriculture and the production potential of the region based on the analysis of changes.

Ganja-Dashkasan and Tovuz-Kazakh economic regions are the main agricultural regions of the republic. There are sufficiently developed areas of agriculture in these regions. Thus, they are the central regions where some agricultural crops, such as grapes, potato, sugar beet, sunflower are cultivated. 46,7% of sunflower production in Ganja-Dashkasan economic region,50,9% of potato production, 31,7% of grape production, 20,6% of vegetable production in covered lands, and 30,4% of sugar beet production falls on the share of Gazakh-Tovuz economic region. These plants play a leading role in food security being of particular importance in meeting the daily food needs of the population and supplying the food industry with raw materials. The lack of agricultural enterprises here does not allow to make full use of some products. Placing their processing facilities in the area can bring significant economic benefits.

The implementation of state programmes has created conditions for achieving positive results in the agricultural sector, increasing productivity and production. The development of agriculture in

economic regions is one of the priority issues in the current state programme to ensure sustainable development.

***Key words**: Economic region, agriculture, agropark, State Programs, horticulture, animal husbandry*

**РЕЗЮМЕ**

**Аида Аббасова**

**РОЛЬ ГОСУДАРСТВЕННЫХ ПРОГРАМ В РАЗВИТИИ СЕЛЬСКОГО ХОЗЯЙСТВА В ГЯНДЖИ-ДАШКАСЕНСКОЙ И ГАЗАХ-ТОВУЗСКОЙ ЭКОНОМИЧЕСКИХ РАЙОНАХ**

В статье исследована роль реализации Государственных программ, а также программ поддержки отдельных областей и направлений сельского хозяйства в увеличении производства в экономических районах Гянджа-Дашкасан и Газах-Товуз. Цель состояла в том, чтобы определить значение этих программ в развитии сельского хозяйства и производственного потенциала региона на основе анализа изменений.

Гянджа-Дашкесанский и Газах-Товузский экономические районы являются основными сельскохозяйственными районами республики. В этих районах имеются достаточно развитые направления сельского хозяйства. Таким образом, регионы являются центрами для выращивания сельскохозяйственных растени: виноград, картофель, сахарная свёкла, подсолнечник, овощи и др. Производства 46,7% подсолнечника в стране приходится на Гянджа-Дашкесанский экономический район, 50,9% производства картофеля, 31,7% производства винограда, 20,6% производства овощей, в том числе 36,4% производства овощей в покрытых землях, 30,4% производства сахарной свёклы на Газах-Товузский экономический район. Эти растения играют важную роль в продовольственной безопасности имея особое значение в обеспечении повседневных потребностей населения в продуктах питания и обеспечении пищевой промышленности сырьём. Отсутствие здесь сельскохозяйственных предприятий не позволяет в полной мере использовать некоторые продукты. Размещение их перерабатывающих мощностей в этом районе может принести значительный экономический эффект.

Реализация Государственных программ создала условия для достижения положительных результатов в агропромышленном комплексе, повышения урожайности и производства. Развитие сельского хозяйства в экономических районах является одним из приоритетных вопросов в действующей Государственной программе обеспечения устойчивого развития.

***Ключевые слова:** Экономический район, сельское хозяйство, агропарк, растениеводство, животноводство*